

# Ölümün üstünə gülə-gülə gedən qəhrəman Rəsul...

## Sanki o, adı fəxrlə, qürurla çəkilən xalası oğlu Sərxan Bayramovun qəhrəmanlığını təkrarladı..

***...Həyatda qəhrəmanlıq dastanı yaratmaq, adını tarixlər boyu yaşatmaq və şəhidlik zirvəsini fəth etmək, hər kəsə qismət olmur. Çünki, belə cəsur gənclər birinci növbədə nümunəvi ailə tərbiyəsinə malik olur, vətənpərvər ruhda böyüyürlər, Ana Vətənimiz uğrunda canını fəda verir, gələcək nəslə nümunə olacaq həyat yaşayırlar...***

***Zaqatala rayonunda isə belə cəsur, ölümə gözü dik baxan, canlarını qurban verən vətənpərvərlər çoxdur. Adını Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazan, ölümün gözünə dik baxan qəhrəman oğullardan biri də - şəhid Süleymanlı Rəsul Kamil oğludur. Düşmənə qan uddurаraq, torpaqlarımızın yağı düşməndən təmizlənməsində, mövqelərimizi fədakarlıqla müdafiə edən, qorxu bilmədən, ölümün üstünə gülə-gülə gedən – elimizin fəxri Rəsul Süleymanlıdır...***

***...Bizim igidimiz 18 yaşında əsil şücaət göstərərək, bütöv Azərbaycanımızın yolunda, ömrünün ən şirin anlarında, canından, qanından keçən Rəsul Süleymanlı 2002 –ci ilin 19 yanvar tarixində Zaqatala şəhərinin 'Qala Düzü" adlanan tarixi məkanında dünyaya göz açıb.***

Digərlərinə nümunə olacaq, çox tərbiyəli, sakit təbiətli, mülayim və mehriban bir ailədə dünyaya göz açmışdı qəhrəmanımız. Bu ailəni dəyərləndirmək üçün söz tapa bilmirəm. Qəhrəmanımızın atası Kamil və anası Günel xanım övladlarına yüksək səviyyədə, əsil ailə modelinə, müasir dövrün tələblərinə uyğun tərbiyə vermişdir. Mən həmin ailədə olarkən Rəsulun nənəsi, anası, bacılarışəhid anası olan xalası, xalası oğlu ilə görüşüb, söhbət edərkən, onların necə yüksək dəyərlərə sahib olduqlarının şahidi oldum.

Bəli, Rəsul Süleymanlı – Süleymanovlar ailəsinin ilk beşiyi olub. Onun 17 yaşında Əsma, 15 yaşında Sümeyya bacıları və 5 yaşında isə İsa adında son beşik qardaşı vardı. Bu ailə ilə söhbət etmək mənim üçün necə də maraqlı idi. Ailə üzvləri özlərini necə də qürurlu, təmkinli və dəyanətli aparırdılar. Sanki, onlar özlərini Rəsulun həlak olmasından fəxr edirdilər.

***Anası Günel xanımı dinlədikcə, o, duyğulandıqca, oğlunun yoxluğuna inanmadığını hiss edirdim: 'Uşaq yaşlarından hərbi vətənpərvərliyə maraq, istək çox olub, balamda. O, həmişə ali təhsilli hərbiçi olan böyük xalası oğlu Harundan məktəb illərindən hərbinin sirlərini çox öyrənmişdi. 16 aprel 2016 –cı il döyüşlərində qəhrəmanlıqla düşmənə qarşı döyüşərək həlak olan, cəsur, qorxmaz, Xüsusi Təyinatlı Xüsusi Dəstənin döyüşçüsü olmuş, xalası oğlu şəhid Sərxan Bayramovun göstərdiyi, tarix yazmış qəhrəmanlığını özünə örnək etmişdi...***

Sərxanın qəhrəmanlığından fəxrlə daxnışmaqdan doymazdı... Xalası oğlu şəhid olanda – onun portretini götürüb, izdihamın qarşısında gedən məhz Rəsul olmuşdu... Nə biləydi ki, balam Rəsul da, xalası oğlu Sərxan kimi bu əbədiyyətə gedən yolu seçəcək və tezliklə onunla haqq dünyasında görüşəcək. Şirin balamın da qəbri Sərxanla bir sırada, hətta yan-yana qazılacaq..." – deyə təmkinlə Günel xanım söhbət edərək dedi: "Rəsul balamız kiçik yaşlarından çox həssas, diqqətcil, hər bir sahəyə maraq göstərən, səliqəli övlad olub. O, Zaqatala şəhərindəki Humanitar Fənlər Gimnaziyasının IX sinfini 2018



–ci ildə bitirib. Gimnaziyada oxuduğu zaman seçdiyi Tarix fənnindən savayı, idmana, hərbiyə, humanitar fənlərlə yanaşı, texniki fənləri də mükəmməl öyrənməyə çalışırdı. Xoş xasiyyəti ilə, dilavərliyi ilə məktəb yoldaşlarının və müəllimlərinin sevimlisinə çevrilmişdir. Sonradan öyrəndik ki, bizim fəxrimiz Rəsul – uğrunda həlak olduğu "Qarabağ tarixinin əsasları"nı dərindən öyrənmişdir. Oğlum həm də güclü idmançı olmaq arzusundaydı. Gimnaziyada oxuyandan idmanın sərbəst güləş və cüdo növləri üzrə məşğələlərə gedirdi. Müxtəlif idman yarışlarında, birinciliklərdə, beynəlxalq turnirlərdə iştirak edirdi. O, dəfələrlə rayon birinciliyinin qalibi olmuş, yeniyetmələr arasında Azərbaycan birinciliyinin qalibi olmuş, İran və Türkiyədə keçirilən beynəlxalq yarışlarda 2 –ci və 3 –cü yerə çıxmışdır. Rəsul çox ailəcanlı uşaq idi. Gimnaziyanı əla qiymətlərlə bitirsə də, işin qulpundna yapşmışdı. O, həmişə deyərdi ki, "Ana, oxumaq gec deyil, ilk növbədə işləyib, ailəyə kömək etmək lazımdır. Axı mənim bacılarım və qardaşım var, sizə çox yük düşməsin". Beləliklə, o, gimnaziyanın 9 –cu sinfindən çıxıb, əvvəlcə bir müddət tikintidə fəhlə, bir neçə ay isə ofisant işlədi, bizim yaxın köməkçimiz oldu. Rəsul ticarətə çox həvəsli idi və arzusu təcrübəli biznesmen olmaq idi. O, Bakı şəhərinə gedərək, Sədərək ticarət mərkəzində əvvəlcə fəhlə kimi işə girmişdi, onun bacarığına, diribaşlığına və ticarətin incəliklərini öyrəndiyinə görə iri marketə satıcı kimi işə götürülmüşdür. Demək olar ki, o, hər gün bizim vəziyyətimizlə maraqlanardı,bacılarını çox istəyirdi, onlardan diqqətini əsirgəmirdi..."

***Sevimli xalası, Aprel döyüşlərində şəhid olan, adı dillər əzbəri olmuş, Sərxan Bayramovun anası Həlimət Bayramova isə dedi ki: 'bacısının oğlu Rəsul, dünyaya gələndən alim olub, dinli-imanlı, əsil müsəlman kimi yetişən Rəsul, bütün dini qaydalara ürəkdən, təmiz qəlblə, paklıqla əməl edən, həm idmançı, həm ticarətçi, Vətənini ürəkdən, qəlbən sevən, ailəyə bağlı, saf bir insandır"***

***Şəhid anası daha sonra əlavə etdi ki: 'O, bizimlə bir ailə kimi idi. Daima mənə, oğlum hal-hazırda xəstəliyi ilə əlaqədar olaraq hərbidən tərxis olunan (ehtiyatda olan baş leytenant) oğlum Haruna və həyat yoldaşıma ürək-dirək verirdi. Ordu sıralarına çağrılanda isə belə demişdi Rəsul: 'İşdi müharibə başlasa, mən xalam oğlu Sərxanın və digər şəhidlərimizin qanını yerdə qoymayacağam. Xain, murdar düşmənlərdən qisaslarını alacağam, dəfələrlə xala əzizim... Belə də etdi, amma..."***

Bu qısa ömürlü, mərdlik nümunəsinin bacılarının qardaşları barədə danışdıqları həyat hekayələrini xatırladırdı...

Bacısı Əsma deyir ki: "mən qardaşımın ölümünə inanmıram, düzdür, kimlərinsə fəth edə bilmədiyi o zirvəni özü kimi fəth edib, biz həyatda əsil məsləkdaşımız, dayağımız, sirdaşımız olan qardaşımızla buna görə qürur duyuruq... O, ölməyib, ölməzliyə qovuşub... Canımızın parçası qardaşımız..."Mehriban çöhrəli, mülayim xasiyyətli bacısı ədabərkanla qardaşının xoş xasiyyətli, diqqətcil Bakıda işlədiyi, hərbi xidmətdə olduğu müddətdə də onlarla daima maraqlandığını söylədi: "Qardaşım səliqəli geyinməyi çox xoşlayırdı, seçim edəndə həm biznən də məsləhətləşər, eyni zamanda bizə məsləhət verərdi. Uzaq görən idi, yaxşılıq etməyi, köməksizlərə əl tutmağı bacarırdı – Rəsulumuz. Qurani Kərimi əzbər bilirdi, səlist oxuyur, ayə və hədisləri mükəmməl təhlil edirdi. Bakı şəhərində keçirilən "Quran" yarışmasında bütün şərtlərə uğurla əməl edərək, qalib olmuşdur. Təşkilatçılar tərəfindən qardaşımız təzə "Quran" kitabı və qiymətli saatla mükafatlandırılmışdır. Arzuları çox idi, qardaşımızın. Xarici ölkələrdə təcrübə keçib, daha geniş miqyaslı iş qurub, niyyəti iş yerləri açıb, ehtiyacı olan ailələri iş yerləri ilə təmin etmək idi. Bizi də gələcəkdə səmərəli layihələrə qoşmaq istəyirdi... Lakin, qardaşım Ana Vətənimiz uğrunda döyüşüb həlak olmağı hər şeydənüstün tutdu... Əziz qardaşım, şəhid qardaşım..."

***Digər bacısı Sümeyyanın ürəyi dolu idi, ancaq danışmağa tərəddüd edirdi. İstəkli qardaşı barədə xatirələri danışdıqca qürurlanmaqla yanaşı – qüssələnirdi. Ömrünün şirin çağında qardaşını itirən hisslərini başa düşmək olardı.*** "O, bizim təkcə qardaşımız deyildi, həm dostumuz, bizim gələcəyimizə nur saçan, gələcəyimizi xoş-firavan görmək istəyən, gələcəyə nikbin baxan, mətanətli, sözü bütöv və iradəli bir insan idi. Ailə daxili qayğıları, çətinlikləri və çatışmamazlıqları aradan qaldırmağa çalışardı, qardaşımız – Rəsul..." deyə, asta-asta söhbətimizə qoşuldu: "Onun həm yüksək qabiliyyəti vardı. Yaradıcılığa meyilli idi. Gah şeir yazır, müdrik kəlamlar qoşur, gah da müxtəlif rəsmlər çəkirdi... Qardaşımın söylədiyi dəyərli kəlamların və qoşduğu şeirin mənasına bir baxın: "Yol getmək yorucudur deyirlər, hara getdiyini bilməyənlər...", "Sadə və fərqli olmaq bizim seçimimizdir", "Gözlərimin qarası mənzərəniz olsun...", "Heç vaxt bir şeyi kiçik görmə..."

**Bir mismar bir nalı,**
**Nal bir atı, o at bir döyüşçünü.**
**O, döyüşçü bir ordunu,**
**Orduda bir ölkəni xilas edər...**

Mən də fəxarətlə bildirməliyəm, Şanlı Azərbaycan Ordusunun bir xilaskar döyüşçüsü kimi düşməndən ölkəmizi xilas edərək, cavan canını Vətən yolunda qurban verdi. Qorxmazlığı ilə ucalığa doğru getdi..."

Bizim söhbətlərimizi nəzərdən keçirən,arada doluxsunan, nəzərlərini qapıdan çəkməyən, şəhid balamızın ana nənəsi Adiy Qazilovanın Rəsul haqqında dediklərini həyəcansız dinləməyə bilməzdik: "O, bir uşaq idi ki, mən hələ də nəvəmin yoxluğuna alışmıram. Elə bilirəm ki, nə vaxtsa qayıdacaq, qapını döyəcək, məni həmişə olduğu kimi qucaqlayıb, əzizləyəcək. Nənə, mən gəlmişəm, rahat ol – deyəcək. Hərbi xidmətə gedəndə demişdi ki: Nigaran qalmayın, Vətənə əla xidmət edib, qayıdacağam, yanınıza... Nəvəmin hərbi formadakı şəkillərinə baxanda anasının lay-lay çalaraq, mənim isə nağıllar danışaraq bələdiyim və yatdırdığımız vaxtları yadıma düşür. O, isə bizə xatirələr dolu nağıllar və qəhrmanlıq dastanları yaratdı..."




Şəhid Rəsulun anası Günel xanım bildirdi ki, oğlu 2019 –cu ilin yanvar ayının 29 –u tarixində həqiqi hərbi xidmətə gedib. Üç ay Bərdədə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət edib, hərbi biliklərə yiyələnib, hərbi təlimlər də iştirak edib. Sərrast atıcı kimi bütün tapşırıqları və normativləri yerinə yetirib. Sonra isə hərbi xidmətini Tərtər rayonunun Borsunlu kəndində, düşmənlə üzbə-üz mövqelərimizdə davam etdirmişdir. Hətta xidməti dövründə idmanla məşğul olub və yarışlarda iştirak edib. Günel xanm söyləyir ki, Rəsul tez-tez onlarla telefonla danışar, ilk növbədə bacıları, qardaşı, nənəsi və əzizləri ilə maraqlanardı. Hərbi xidmətinin çox yaxşı keçdiyini, narahatlığa əsas olmadığını deyirdi – Rəsul...

"Pandemiya ilə əlaqədar olaraq qadağalar olduğuna görə biz, Rəsulun yanına gedə bilmədik. Ondan ötrü çox darıxmışdıq. Bacıları həsrətlə onun məzuniyyətdən gəlməsini gözləyirdilər" deyə, söhbətini davam etdi, Günel xanım. O, söylədi ki: "Oğlum bizə demirdi ki, onlar müharibəyə hazırlaşırlar. Yay aylarında ermənilərin Tovuz təxribatından sonra çox narahat idik. Oğlumun sonuncu zəngi sentyabr ayının 27 –də səhər saat 630 radələrində oldu. O, dedi ki: "Ana nigaran qalmayın, biz getdik, bacılarımdan, qardaşımdan, nənədən muğayat olun..." daha artıq heç nə demədi balam. Bu mənim əziz balamın sonuncu danışığı oldu. Müharibə xəbərini eşidəndə isə daha da narahat olmağa başladıq, günlər keçdi, oğlumdan soraq gəlmirdi. Biz, bacım oğlu hərbiçi olmuş, ehtiyatda olan zabit olan Harun da Rəsulun harada döyüşdüyü, sağ olub-olmaması ilə tez-tez maraqlanırdıq. Mən, Müdafiə Nazirliyinə müraciət edim və oğlumun taleyi ilə maraqlandım. Hətta xidmət etdiyi hərbi hissədən də oğlumun sağ-salamat olub-olmaması ilə də dəfələrlə maraqlandıq. Lakin, dəqiq məlumat ala bilmədik. Bacım oğlu, şəhid qardaşı Harun da bir neçə dəfə cəbhə bölgəsinə gedib və Rəsulumuzu soraqlayıb..."

Harun Bayramovun (ali təhsilli zabit, şəhid-qəhrəman Sərxan Bayramovun böyük qardaşı) dediklərinə görə, xalası oğlu söz verdiyi kimi Sərxanın qisasını qan içən düşməndən alaraq, elə ilk döyüşlərdə, ən qızğın döyüşə atılaraq, "Snayperlə" erməni dığalarını qıra-qıra bir neçə postumuzu azad edərək, Azərbaycanın Milli Qəhrəmanı Mübriz İbrahimov adına post uğrunda ölüm-dirim mübarizəsi aparmış, postu azad etdikdən sora, "Əzrayıl" düşmən igid döyüşçülərə mərmi, raket yağışı yağdırmışdı...

***Azərbaycanımızın Vətən fədailəri ilə birlikdə Rəsul ağır yaralanmış və şəhadətə qovuşmuşdu. Amma, onun nəşi oktyabr ayının 26 –da Yevlax şəhər xəstəxanasında aşkar edilmişdir.***

***Xalası Həlmət xanımın dediyi kimi: 'anadan alim kimi doğulan" nurlu, əzizlərinin həyat yoluna daima işıq saçan Rəsul, Sərxanın və neçə-neçə qəhrəman oğlanların qisasını düşməndən alaraq, əbədiyyət dünyasına, şəhadətə qovuşdu.***

***Balaca qardaşı İsa demişkən: 'qardaşım üçrəngli bayraqları bizə sevdirərək – qəhrəman oldu".***

***...Yaşadığı 18 ildə daima əzizlərinin bşını uca edən Rəsul, bu dəfə yurdumuzun qeyrətli, namuslu, mərd oğlu el qızlarımızın, ana və bacılarımızın vicdanı, namusu uğrunda həak oldu...***

***Ruhun şad olsun, ölümün üstünə gülə-gülə gedən – şəhid Rəsul.***

***Ölkə Başçısı ölümündən sonra onu 'Vətən uğrunda medal" ilə təltif edib.***

***Vətən fədaisinin adı Respublika Cüdo Federasiyasının Şərəf Kitabında yazılıb.***

**Elman Maliyev**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**